VAQİF SƏMƏDOĞLU

# Sandıq şeirləri

Bakı
MÜTƏRCİM
2016

Bu kitab Azərbaycan Yazıçılar Birliyinin

aybKitab

layihəsinin nəşridir

Layihənin rəhbəri: **Xəyal Rza**

**Vaqif Səmədoğlu. Sandıq şeirləri.**
– Bakı: Mütərcim, 2016. – 216 səh.

ISBN: 978-9952-28-289-4

© AYB, 2016
© Mütərcim, 2016

## *Edit Piafa*

Şüşələr çox,
Kişilər çox,
Ömür az...
Dünya ikiqapılı,
Yaşayanda
İkisi də qapalı...

*1962*

Bu gün
Zevin küçəsi
qurtaran kimi
dəniz başlandı...
Rəngi rəngsiz,
Üfüqü üfüqsüz...
Dənizin rəngsizliyiylə,
üfüqün üfüqsüzlüyüylə
uzandı arzularım,
addımsız,
kimsəsiz
koridorlar tək...

*1962*

## Qoxun

Bakıya gedən qatarın
vaqonlar arası get-gəlində əridi,
Bakı vağzalında gözlərini unutdum,
taksiyə minərkən dodaqlarını.
Evimizin astanasında sağ əlin,
Otağımda sol əlin yox oldu...
Lakin
o siqaret tüstüsünü,
stula atdığın
sarı paltarın əziyini,
bir-birimizə dediyimiz
özgənin anlamayacağı sözləri,
o sözlərin səssiz qüssəsini
unuda bilmirəm,
unuda bilmirəm...

*1964*

Gələcəklər, gedəcəklər, olacaqlar, öləcəklər,
Köç barxanası yığılarkən, aranda güllər solacaq,
Şimal, cənub qalacaq, sağ, sol olacaq,
Qrimlənəcəklər səhnə arxasında təlxəklər.
Mənsizlikdə,
Sənsizlikdə,
Bizsizlikdə...
-Deyəsən öləcəyəm.Taqətim qalmadı...
-Atasına od vurdum!Vicdansızın...
-Möhtərəm cənablar! Xalqların...
-Sevirəm, sevirəm səni... – deyəcəklər.
Mənsizlikdə,
Sənsizlikdə,
Bizsizlikdə...
Kür Xəzərə axacaq,
Dunay Qara dənizə.
Gecə qaranlığında uçan qağayıdan
Dənizə ağ kölgə düşəcək.
Mənsizlikdə,
Sənsizlikdə,
Bizsizlikdə...

*1964*

Məni daşla bağa aparma, bala,
İzləri daşlardan, axsaq olmuşam.
Səmtimi dəyişib yönəltmə dala,
Dediyin deyəcək, axmaq olmuşam.

Cümlədə nöqtə tək axtarma məni,
İtənlər içində itən olmuşam.
Dünyaya borc sanıb, qaytarma məni,
Gedənlər getməzdən gedən olmuşam...

*1964*

## Dünən adını yazdım

qara royalımı örtmüş
bomboz tozun üzündə.
Gah şimaldan,
gah cənubdan
baxdım adına.
Adın günəşlə dolurdu,
kölgədə qalırdı,
mənimləydin sən.
Aramızda bir yol vardı - dünən!
Bu gün o da kəsildi.
Vasvası anam
royalın tozunu sildi...
Yox oldu şimal.
Cənub da yoxdur indi.
İndi nə sən varsan, nə mən.
Günəşə kölgə endi.
Dünənimlə bu günümün
əhvalatı belədir...
İndi külək pəncərənin pərdəsini
sənsizlik üzərində
bayraq kimi yellədir...

*1965*

Neçə ildir
iki eynək şüşəsi durur
dünyayla gözlərimin arasında.
Eynək şüşəsi ola biləydim
Beş-on duman gözlü adama...

*1965*

Kölgələr daraşır,
kölgələr daraşır yer üzünə!
İnsan kölgəsiylə bir rəngdədir
daş kölgəsi.
Söyüd kölgəsi tək sərindir
krematoriy kölgəsi.
Kölgələrimiz qarışıb düyün olarsa,
bir addım belə ata bilməyəcəyik!

*1965*

Yağış yaxşı şeydir,
dünyada yoxsul ayaqqabısı olmasa.
Günəş yaxşı şeydir,
altında kimsəsiz meyit olmasa.
Sudan yaxşı nə var ki?
Ölkədən ölkəyə sərhəd,
həyatdan bezənə
gedim yolu olmasa.
Dünya yaxşı şeydir,
müharibəsi, nadanlığı,
bir də
standart evləri olmasa...

*1966*

Diləndçilikmi bu, yoxsa ürək üzmə?
Amma dünyanı papaq kimi
Qoymuşam o tində
Səkinin üstünə...
Daha keçib günahdan,
İllər dilənirəm Allahdan
beş il, on il, nə bilim,
nə qədər atsa qabağıma.
Bilirəm, əvvəl-axır
O da keçər bu tindən,
tutar papaq yiyəsinin əlindən.
Özü bilər.
Jəllad başına kirli,
Şair başına təmiz hava gələr....

Buranın havası necədi?
Bir az sağlam, bir qədər ölümcül.
Buranın davası necədi?
Bir az sağlam, bir qədər ölümcül.
Buranın yuvası necədi?
Kiçik otaq sağlam,
Büyük otaq ölümcül...

*2006*

Səksən səkkiz yaşında
Dəyişdin dünyanı.
Altmış altı yaşımda
Basdırdım səni.
Səksən səkkiz – sən,
Altmış altı – mən.
Ana,
tez kəsdin süddən...

*2006*

Bu bayram kimin ağlına gəldi?
Hansı kimsə
uydurdu bu üzügülər ağlaşmanı?
Bir üzgün xatirədən
qopub tökülən
uşaqlıq xəzəlləri,
sarı yarpaqlara bənzər
kəsilmiş insan əlləri,
və bu yersiz, abırsız
dibçək gülləri!
Haram olsun sizə, haram,
mənim açılmış yaram...
Bir hamilə qadın vardı,
Küçük doğdu doğum evində.
Kim sevindi?
Bilmirəm sonra deyim, ya indi...

*2006*

Uf, aman Allah,
Bir ora bax,
Sənə namaz qılır
O bədbaxt.
Yaman daralıb vaxt,
Ucuzlaşıb qəzəb,
Qiymətdən düşüb dözüm.
O baxtı saxta bədbaxt isə
Sənə inanır
Niyə qoyursan?...

*2006*

Səndən yenə
qar yağır.
Yenə sazaq dolu sinəndən
şaxtalı sözlər,
qırovlu ahlar,
buz bağlamış
gülüşlər çıxır.
Ölüm qat-qat istidir səndən...

*2006*

O bayrağa nə olub?
Neçin gözləri dolub
o bayrağa baxan uşağın?
Ağlama, bala,
o rənglər
Təbiətdə də saralır, solur,
yağışlar altında qalır.
Aman, ay aman,
Getdiyin yol
Birdən-birə necə daralır...

*2006*

Bu palitradakı rənglər
ayrılacaqlar
bir-birlərindən.
Və o andan sonra
Kimsə yığa bilməyəcək
Onları bir tabloya,
Mənzərəyə, portretə.
Nə rəssam,
nə Allah…

*2006*

Bu günümüz belə keçdi,
Sabahdan nə xabar var?
Düzlükdən bir səs çıxmadı,
Günahdan nə xəbər var?

İnamı zaman apardı,
Allahdan nə xəbər var?
Sinəndən bir ah çıxmışdı,
O ahdan nə xəbər var?..

Məni sabah erkən
Hökmən yuxudan oyat.
Ölməyə qoyma.
Ölsəm,
Yadımdan çıxar
Səni sevib,
Səndən şeirlər yazmağım...

Bir az
Aşağıdan əs,
dəli xəzri...
Qaldır
o qızın paltarını,
görüm
dünyada
nə var, nə yox...

Abırlı saydığımız adamların
ayağı dəyməyən
bir kafedə
sevişirəm təkliyimlə,
yalqızlığa güc verirəm
o zəhrimar dediyimizlə.
Burda, bu kafedə
üzüqoylu yıxılmaq olur
xatirələrə.
Burda ağlaya bilirsən
bir göz qırpımında...

Gecə, necə gecə!
Belə gecədə
Bir gözəl qadının
Yalanına aldanıb,
Dönəsən heçə,
İsinəsən
yalanın isti qucağında,
Günahın
Müqəddəs ocağında...

Sevilməli,
sevinməli yerlərdən
tez keçirəm,
ayaq saxlamıram oralarda.
Dayanmıram,
salamlaşmıram təbəssümlə,
görməzliyə qoyuram özümü.
Buludlardan xeyli aşağıda,
çiçəklərdən bir qədər yuxarıda
yer tapmışam gözlərimə.
Və bu yerdə hər gün
Ayrılıq bayramıdır...

## Qar üstündə

gördüyüm iz...
Allah, bu iz nə izdir?
Axı bura qar yağmayıb,
bura yaydır, dənizdir...

Ölünü zəhərləmək olmaz,
onsuz da ölüb.
Bir yağışlı gün gəlib,
yenə yerini bilib,
məni yağışla
islatmaq olmaz,
ana bətnindən çıxalı
qurumamışam,
yaşam...

Rəssamlar var,
bir rəng həsrətiylə
köçürlər bu dünyadan.
Doymur,
dünyadan doymur insan.
Yoxsan!
Yoxsan, deyir sənə hər yan.
Uçulur mərmər saraylar,
kəsilir səssiz haraylar.
Bu dünyadan
Iki əlli yapışmış
rəssamlar var...
Tapılmamış rəng.
Məzar üstündə çələng...

*2002*

İstidir yaman.
Zuğulbada bürkü hökmran...
Yadıma salıram bir qışı,
sərt qar, yağışı.
Sazaq,
evə yol uzaq,
donmuş canımda yay arzusu...
İndi yay,
krandan axan ilıq su,
yuyulmayan tər qoxusu.
Ötən bir qışın
beli sınmış arzusu,
canı yanmış arzusu.
Belə olur, belə...
Yay arzularını
qar dondurur,
qış arzularını
günəş külə döndərir...

Getdiyimiz bu yol küçədir?
Nəsə danışırsan
başımız üstəki aydan, ulduzlardan,
o göy üstündəki yalqızlardan...
Vitrində
alyanaqlı kloun,
vitrin şüşəsində əksimiz.
Hardayıq, hardayıq biz?
Elə bilirsən bu mənəm?
Payız, yağış,
aləm nəm...
Elə bilirsən gecədir?
Elə bilirsən

Biri vardı, biri yoxdu,
o zaman
ümidlər,
arzular
nə yaman çoxdu...

Oturdun,
mürgü vurdun,
durdun o skamyadan.
Səni kim oturtdu,
mürgü vurdurdu sənə?
Kim idi səni oyadan,
qaldıran o skamyadan?
Ömrün duzu
sümüklərə girdi,
ömrün şəkəri qana.
Evin bu yandadır, Vaqif,
Getmə, getmə o yana...

*2002*

Qurani – Kərim kitabını
açıq saxlama, heç vaxt.
Heç zaman bağlama
şeir dəftərini.
Müqəddəs Kitabı
yaxşı yerə qoy.
Şeir dəftərinə dəymə,
özü yer tapacaq özünə...

Narahatam, narahat.
Arabaya
Qoşulub Qırat...
İlahi,
bizi dağıt,
təzədən yığ, yarat...

Pərvanələr azalıb
Abşeron çıraqlarında.
Bakı bağlarında
keçmişdən
yoxdur əsər- əlamət.
Uşaqlığım qələt eləyir, qələt.
Burdan
baş aça bilməzdi uşaqlığım.
Burda
qaça bilməzdi uşaqlığım...

*2002*

Yenə
çıxa bilmədim aradan.
Qoymadı Yaradan.
Bir damla qan da
düşdü açıq yaradan...

Bu yerlər
yaraşıqdır, yaraşıq.
Burda doğan fikirlər
yer üzüylə
barışıqdır, barışıq.
Bu şam ağacları
hərəsi bir yaşıl saz,
gözlərimin
hərəsi bir aşıqdır, aşıq...

Sözə də göz dəyərmiş,
sevinci də
insan qəm tək yeyərmiş...
Bu qədər buludların
altında sıxılarmış,
insan oğlunun oğlu.
Bir gündə neçə kərə
büdrəyib yıxılarmış...
Guya ümid də varmış,
arzular da bolluca.
Amma nəsə çatmır yenə
bir tikə toxa, bir tikə aca.
Sürün, amma görün uca...
Qanadlarım bərkiməyib,
amma bir gün gələcəyəm,
gələcəyəm uça-uça...

Saçların ipək yolu,
Səsin məsafəylə dolu.
Arayıram sağı-solu,
Taqət yoxdur,
Cürət yoxdur,
Sənin qarşına çıxmağa...
Üz olsa da,
Xoşa gələn sifət yoxdur...

Həmən gecə, həmən səki,
Yenə həmən pəncərədən
Yerə düşdü həmən işıq...
Sabah dan yeri ağarmaz,
Ağarınca, gün doğunca
Bozarar yavaş-yavaş.
Yenə həmən dan yeri,
Həmən o bozaran yer...

*1997*

Hardasa uzaq bir planetdə,
Bir isti daş üstündə
Bir qəribə heyvan uzanıb,
Mürgü vurur.
Heç nə düşünmür,
Heç vaxt üşümür...

Bağlama özünü,
açıq qal,
səndən təmiz hava gəlir.
Bir gözəl
mənzərə görünür səndən...

Tanıdınmı məni?
Yadına düşdümmü
məni ocağa atanda?
Yaxşı bax,
yadına sal!
Yadındamı
necə gözəl ağac idim?
Lal-dinməz
durmuşdum yol qırağında,
sərin kölgə salmışdım
sənin üstünə...

Dünya bilsə,
içimdə gizlənən
arzular nədir,
ümidlər nədir,
onda
vay canım,
onda
hayıf sənə Azərbaycanım...

*2002*

Açarını itirdim, qapım!
Açılmayacaqsan.
Möhkəmsən,
təpik vursam, uçulmayacaqsan.

Tək-tük adamlar indi
dolanır küçələri.
İndi gecədir, qapım!
Royalımın rəngi,
yorğan-döşəyimin əziyi,
özlüyümdən qaçmadığım anların dərdi
arxandadır indi.
Acıl qapım, acıl!
İnan
indi açılsan,
sənə gümüşdən qıfıl düzəldərəm,
qızıldan – açar.
Açıl taxtalım, dəmirlim, açıl!
Sən açılmasan,
arxamda bir qapı da açılmaz.
Mənə
açılmayan qapılarsız
yaşamaq olmaz...

*1966*

Dəniz əl-üzünü yuyur
gilavarın xəfif,
sərin suyu ilə.
Dayanmışam
bu günümün
dənizlə dolu içində.
Fil kimi müdrükəm bu gün...
Bilirəm,
məndən sonra
dəniz qalacaq,
sürüşüb düşsəm birdən
günlərimin içindən...

*1966*

Aya baxıram,
üzü ləkə-ləkə.
Rentgendə görünən
vərəmli ciyər təki.
Nədənsə içim
tapmacalı fikirlərlə dolur.
Vaxtsız ölənlər düşür yadıma.
Titrəyirəm,
məsafənin aydınlığını
zəhər kimi uda-uda.
Tərslikdən,
bir bulud da gəlib durmur
Ayla mənim aramda...

*1966*

Üzünüz qara olsun,
qışqırıram ağ buludlara,
susuzluqdan dili çıxanda
yer üzünün!
Üzünüzü yuyun,
qışqırıram qara buludlara,
Günəşi axtaranda gözü
yer üzünün!..

*1966*

Əynimdə sarımtıl plaş,
Ayaqlarımda bir cüt macar çəkməsi.
Göy qübbəsini qoyub başıma,
dayanmışam
yer üzünün sakit bir küçəsində...
Nə bir yana getmək,
nə də evə dönmək istəyirəm.
Yoruldummu
yolum yarı olmamış?

Bilirəm,
yarpaq-yarpaq saralıb
ömrümün atamla getmiş çağları...
Bilirəm,
o düşən yerdə qurtarıb
ömrümün ən əziz dayanacaqları...

*1966*

Kimi sevim, sevim necə?
Bir məzardan
on dörd kəllə çıxdı,
yalnız on dörd kəllə.
Belə, bala, belə...
bircə əl-qol, ayaq sümüyü,
bircə qabırğa dəymədi gözümə.
İnan, bala, inan sözümə...
İndi söylə, söylə, bala,
kimi sevim, sevim necə?
Yat, gecədir, qaranlıq gecə...

*1991*

Üz-gözünə, bığlarına
Bir qara pişik
Şeytan yağı yaxıb,
Evin damına çıxıb,
Damdan şəhərə baxıb...
Görüb maşınlar keçir,
Kişilər araq içir,
Səslər vərənti kimi
Sükutu kəsib biçir...
Bu evdə bir köhnə saat
Kəfkiriylə vaxt sayır,
Damda bir qara pişik
Üz-gözünü yalayır...

*1997*

Qurutduğun bataqlığa
bir gün yenə
su dolacaq.
O bataqlıq
sənin məzarın olacaq...

*1997*

Günlər
güllə kimi keçirlər
sağımdan, solumdan.
Şükür,
hələ biri də
dəyməyib sinəmə...

*1997*

Kaş çoxlu pul qazanıb,
Yeyib-içəndən sonra
Düz bircə il uzanıb,
Arxası üstə yatıb,
Şirin yuxuya batıb,
Ömrümün bir ilini
Yaşayaydım beləcə.
Sonra birdən oyanıb,
Görəydim ki, gecədir.
Gözlərimi açmadan
Soruşardım ucadan:
-Allah, saat neçədir?

*(1991)1997*

Yalan yağışı yağır.
Damlarımız yuxadır,
axır hamısı,
evlərimizin içinə damır
yalan yağışı.
Damlaların altına qoyuruq
vicdanımızı,
namusumuzu,
gələcəyimizi.
Dolur hamısı yalanla.
Yağışsa yağır, yağır,
kəsmir bu yağış...

*1997*

Bir rəssam öldü.
O öləndən sonra
Mənzərələrində rənglər soldu,
Çəkdiyi uşaq portretləri
Qocalıb, yaşa doldu.
Natürmortlarında meyvələr çürüdü,
Bəyaz rənglərini qara bürüdü.
Bir rəssam öldü.
Ölüm xəbəri gəldi...

*1997*

İlin bir ayını
yolda olmaq istəyirəm,
qalan on bir ayını
yol qırağında...

Hamıyçün yana bilmərəm
Günəş kimi.
İşıq olmaq istəyirəm
bir qoca səyyahın
yol çırağında...

*1991*

Nəyin yoxdur sənin?
Altında necə qalmısan
bu boyda qüssənin?
Üfüqə qədər
nə görünürsə – sənin.
Hava açıqdırsa,
dumana bürünürsə – sənin.
Xatirələr həzin,
yup-yumşaq kədər,
o gün açılan çiskinli səhər,
hamısı sənin.
Hər şey, hər şey!
Çalınmış qitar, çalınmamış ney...

*2002*

O qoca ev,
o yorğun pəncərə.
O əldən-ayaqdan
düşmüş səki...
Sağ qalmaq,
kələk gəlmək əcələ,
çarpışmaq,
bəlkə bir az da
ömür gələ ələ.
Təki!
Təki o heysiz səki üstünə
papaq tək qoyulmuş dünyaya
üç-dörd il də ata Allah.
Bəlkə ondan da çox.
Yox.
Az? Özü bilər.
Çox?Özü bilər.
Cəllad başına kirli,
Şair başına təmiz hava gələr...

Göy üzüylə bulud gəlir,
Gəlir könül almağa.
Bir az kölgə salıb yerə,
Yerdə qonaq qalmağa.

Göy üzüylə bulud gəlir,
Gəlir bəzək vurmağa.
Göyün buludsuz yerinə
Dümağ yiyə durmağa.

Göy üzüylə bulud gəlir,
Gəlir mənə baxmağa.
Yumşaq səslə demək üçün:
– Axmağa bax, axmağa...

*2002*

Elə yaşayıram
bəzən bu günü,
elə bil
gələcək sabahım yoxdur.
Zil şərdən enirəm
ən bəm xeyirə,
sanki başım üstə
Allahım yoxdur.
Özümdən doymuram,
gəlirəm təngə,
lal-dinməz oluram,
verirəm əngə,
dovşan qorxaqlığım
düşür yadıma,
içib çevriləndə
şirə, pələngə...
Mən neçin beləyəm?
Bəlkə kələyəm?
Bir işdə, əməldə
savabım yoxdur,
bircə suala da
cavabım yoxdur...

*2002*

Şüşə pəncərənin deyil,
gözlüyün də deyil şüşə.
Şüşə yerindir,
düşüb sınar.
Şüşə daşındır.
Çilik-çilik olar
atılmış daşla.
Şüşə günəşindir.
Sevinər, min rəngə çalar
gün şüalarında
şüşə qırıntıları...

Bir yuxu böyrü üstə,
bir yuxu ayaq üstə.
Bir qorxu qaçhaqaçda,
bir qorxu qəhrəmanlıq.
Bir ümid işıq saçır,
bir ümid qapqaranlıq.
Bir arzu Allah işi,
bir arzu cin əməli.
Bir yağış göydən yağır,
bir yağış göydən ağır.
Bir qapı üzdən bağlı,
bir qapı içəridən.
Nə getdi çöldən getdi,
qıy vuran köçəridən...

*2002*

Havadır, işıqdır,
Özümlə
Bir anlıq barışıqdır.
Gələcək də
Yaxşı görünür
Yaxşı baxanda,
Bir Ay çıxanda,
Bir Gün doğanda...

*2002*

Bu şeirlər yuxuludur,
yatmaq istəyir sözlər.
Gör bir haçandan
mürgü vurur
vergüllər, üç nöqtələr.
Yetər!
Bağlan, sevgilim dəftər...

Mənə yaxın durma,
təzəcə rənglənmişəm
zolaq-zolaq.
Yeni ümidlər,
təzə arzular.
Amma rənglərin
hamısı köhnə.
Rəngsaz da qoca idi,
əli əsirdi...

*2002*

Bir kəpənək uçdu böyrümdən,
yıxıldım...
Bir körpə ah çəkdi,
yıxıldım...
Atam yadıma düşdü,
yıxıldım...

Göy üzündə Aypara,
Söykənmişəm divara,
Bilmirəm kiməm, nəyəm,
Avarayam, avara...

Ömür qara, gün qara,
Baş alıb qaçım hara?
Mənə yazıq deməyin,
Avarayam, avara...

Gözüm ağ, dilim yara,
Özümdən gəldim zara,
Üstümə işıq salın,
Avarayam, avara...

Neyləyim, cigərpara,
Qara gün vermir ara,
Çəkilin, mən yıxılım,
Avarayam, avara...

Allah, özün çək dara,
Mən hara, həyat hara,
Ay ölüm, əlini ver,
Avarayam, avara...

*2002*

Gecədir.
Gecə görən neçədir?
Sorma saat neçədir...
Bu otaq otaq deyil
uzaq, qürbət şəhərdə,
bir dar, qara küçədir...

Xirtdəyə qədər
borc içindəyəm:
ağaclara,
insanlara,
dənizə,
muzeylərə
Hələ
qəbiristanlığı
demirəm...

Tanış olun:
bu mənim
yerə düşmüş kölgəm.
Tanış olun:
bu mənim
özünə yer tapa bilməyən
ölkəm...

*1995*

Qışda evdə qovurğa,
Eşikdə çovğun,
Ürəyin rahat,
Gözlərin yorğun,
Görünər, istədiyin görünər,
Yorğana dönüb,
Sənə bürünər...

Yaralıyam, yaralı,
yaralarla səndən
xeyli, xeyli aralı,
səndən ömür umuram
düşmən məni vuralı...
Bişdim, şişdim
bu yaşda,
köhnə yaralara ilişdim,
ilişib,
burdan çıxa bilmədim,
sənə yaxından
baxa bilmədim,
özümü səninlə
yıxa bilmədim...
Nə təzə, nə qədim?
İki adam arasında ara...
Oyna, oyna,
oyna sındıra-sındıra...

İki göz yerinə
İki kəpənək,
Bir ürək olmalı yerdə
İki qanad açmış kələk,
Və hər şey birdəfəlik,
Şikəst əlindən düşmüş çəlik,
Savad olmalı yerdə
Adicə bilik,
Bir baş aşağı, o biri dik,
Sakit ol, sakit,
Sakit ol, sakit ol, ol,
Hara gedirsən get,
Sənə yaxşı yol...

*2003*

Yağış əvvəl
Damla-damla yağardı,
Kədər məni
Həlim-həlim boğardı,
İndi dəli lehsana
Dönüb yağış,
Bu Allahın bir işi,
Allaha alqış!..

O daşı əyilib, öpmək istədim,
utandım yanımdakılardan,
“dəli” damğasından qorxdum.
O quru budağa yas saxlayardım,
o zərif yulğuna:
– Səni sevirəm, – deyərdim.
Beynim niyə işləyir?
Ürəyim neçin döyünür hələ?
Necə gəlib çıxdım bu yaşıma.
Başıma ya tac qoyulacaq,
ya kül olacaq başıma...

Yorulub, yorulub atlar,
Atların ayaqları,
Atların dayaqları.
Süst düşüb bu yolda saatlar,
Dəqiqələr qupquru quruyub.
Yorublar atlar vaxtı,
Köpüklənib vaxtın ağzı.
İndi vaxta,
Çatlamasın bağrı deyə,
Su vermək olmaz,
Amma buralarda atdan enib,
Bir an belə
Nəfəs də dərmək olmaz...

*1998*

Burda axı bir yol vardı,
Qırağında iki çinar.
İndi nə kölgə var, nə yol,
Solda divar, sağda divar.

Burda bir də bir kol vardı,
Dibində beş-altı kəklik.
Yoldan bir qoca keçirdi,
Sağ əlində köhnə çəlik.

Bura bir qış başdan-başa
Ayaz idi, dümağ qardı.
İndi yalnız mənə bəlli
Düz on altı yaşım vardı...

*2000*

Baxdım siyahılara...
Ölənlər arasında
Görmədim adını.
Görmədim adını
Dirilər sırasında.
Bu dünyanın
Nə ağında varsan,
Nə qarasında.
İrinsən, kirsən
Yaxşı insanın, insanların
Qaysaq bağlamayan yarasında.
Özün bilirsən harasında...

*2002*

Ağlatma.
Nə dil de, nə ağı,
Nə də mərsiyə oxu.
Aca dəymə, tərpətmə toxu.
Qoy hər şey, hər kəs
Öz yerində qalsın.
O göyərçini də ürkütmə,
Qoy dursun o budaqda.
Tərpətmə bu dünyanı,
Bilmək olmaz
Altında nələr yatır...

*1998*

Hardasan yastı daxma,
şehli cığır,
arabir fırnıxan yabi?
Niyə batdınız
şehli səhəri cırıldadan
araba təkərlərinin səsi?
Yetdimi mənzil başına
şərqə sarı şığıyan qatar?
Bilmirəm.
Oyanmaz, ayılmaz,
qucağımda illər uzunu
bir yetim lay-lay yatar...

*1998*

Üfüqdən gözəl
kimin xətti var?
Bir söz yazmayıb,
bircə fikir yox.
Amma
hər şey aydın,
hər şey gözəldən gözəl...

*2001*

Məndən nahaq qorxdun.
Sənin əllərin, ayaqların,
gözlərin, səsin,
ümidlərin varıydı.
Sən məndən
qat-qat çoxdun.
Nahaq qorxdun...

Dayanma.
Soyunma.
Çıxarma əynindən
yaşadığın illəri,
eşitdiyin ağıları, dilləri,
bəs o ala gülləri
o can alan donundan
kim dərəcək?
Kimin məzarına qoyulacaq
donundan dərilmiş güllər?
Hamı bizə gülər.
Açıq döşə, dizə gülər.
Dayanma.
Soyunma...

*2003*

Atalar
ən ağıllı sözlərini
aparıb getdilər.
Ömürdən, gözdən itdilər.
Süddən bizi
yaman tez kəsdilər analar.
Odur indiyəcən
ağlayırıq zar-zar...

*2003*

İndi kədər ya cin,
ya da şeytandır?
Bəlkə qara yuxu,
bəlkə gümandır?
Bəlkə də yalandır,
qapqara yalan?
Çox da baş sındırma,
bir təhər dolan...

*2003*

Keçi olmasam da
başımı sürtürəm çomağa.
Çoban bir söz demir.
İçimdə
daha yer yoxdur
söz qoymağa...

Təmiz hava yorğunluq,
açıqlıq da ağırlıq,
ağır yükdür işıq da
qaranlıqdan çıxana,
dünyaya beş-on addım
gendən durub baxana...
Yükdür arvad-uşaq da,
taleylə barışıq da...

*1995*

Əlil dəlildirmi?
Dəli əlildirmi?
Əl də kəsilib yerə düşüb,
o əlin tutduğu qılınc da.
Bu əl daha əyilə bilməz
o qılıncın dalınca.
Əzrayıl canı alınca
dayanıb, durmaq da olmaz.
Ehey, qarabala,
qılıncı düşmüşün,
əli kəsilmişin canını
Əzrayıl da almaz.
Yox, alar...
Alanda nə olar?..

*2003*

Evlər, nə evlər,
evlər uçulsa əgər,
əgər, nə əgər...
Bəlkə də qara fikirlər,
bu qorxu yetər,
yetər, nə yetər...
Olmasa bütün arzular,
ümidlər bitər,
bitər, nə bitər...
Görürsənmi,
hamının başı ağrıyır.
Tez ol,
yaxşını yamandan ayır.
Tez say,
fələk də sayır,
sayır, nə sayır...

*2003*

Mən də səndən küsülüyəm
təkcə özün yox,
mən də özümü üzürəm,
təkcə sözün yox...

Aram-aram, asta-asta
bir blyuz ağlayırdı
qonşu pəncərəsindən.
Addım-addım gəzib,
əl uzadırdım pəncərələrə,
dilənə-dilənə
bir blyuz alırdım hərəsindən.
Keçib bu yolu
geri dönürdüm dolu,
qayıdırdım gecədən səhərə.
Və o günlər
bata bilmədim günaha.
Qurban olum
pəncərələri açıq şəhərə,
bir də Allaha...

*1987*

O gün dəniz vardı,
sahil varıydı.
Bir gün bir yay ayı,
bir iz varıydı.
Nəm sahil qumunda
uşaq izləri,
hansısa körpənin
yalın izləri...
İlk dəfə eşitdim
mən iz səsini,
üzümə toxunan
iz nəfəsini.
o gün azadlığa
açıb buraxdım
qəfəsdə saxlanan
dəniz səsini...

*1997*

Öz əlifbamız olsaydı,
onunla yazacaqdım şeirlərimi,
tapacaqdım öz yerimi.
Kağızım olmasaydı,
soyub öz dərimi
onun üstündə yazacaqdım şeirlərimi.
Bir özgəsi soysaydı dərimi,
yox, harda olsaydım,
tapacaqdım öz yerimi.
Daş üstə, qaya üstə
cızacaqdım şeirlərimi
hansı əlifbada olursa olsun.
Lap elə qaya üzərində
uçan qara yarasa olsun...

*1987*

Gözlərində boş yer varmı?
Olarmı mən də görünüm?
Çox qalmaram yaşa dönüb,
Sol yanağınla sürünüm?

Saçlarında boş yer varmı?
Olarmı mən də hörülüm?
Darağının dişlərinə
Keçib, öz xoşumla ölüm?

Əllərində boş yer varmı?
Olarmı mən də yuyulum?
Əllərin heç, o sabunun
Köpüyünə qurban olum...

Niyə belə dolğun olursan,
yorğun düşəndə?
Yağmaqmı istəyirsən
yağışla dolu bulud kimi?
Yorğunluğun yağır,
yağır yorğunluğun...

Bir yulğun var Bəndivanda,
Yoldan yüz addım o yanda.
O yulğunun beş budağı
Düşüb şoran düzə batıb.
Onun seyrək kölgəsində
Burularaq gürzə yatıb...
Yata-yata mənə baxır,
Nəzər-nəzər mənə axır,
Dolur içimə gözüylə,
Tərtəmiz zəhər sözüylə
Böyüdür məni özüylə.
Ağırlaşıb otururam,
Mən də burulub yatıram,
Məni ilana qatıram,
Və görürəm insan yolu
Yenə suallarla dolu.
Yulğunda da savab yoxmuş,
Zəhərdə də cavab yoxmuş...
Ğürzəylə bir yuxu görüb,
Uzun yuxu ömrü sürüb,
Birdən bir yuxu görürəm,
Dünyanı yorğun görürəm,
Özümü yolda görürəm...
Yoldan yüz addım o yanda
Bir yulğun var Bəndivanda...

Düyün düşən yuxular var,
eşıkdə soyuq, qar var,
külək döyür pəncərəni,
oyadır yuxudan məni.
Bu düyün heç vaxt açılmaz,
düyün düşən baxt açılmaz,
belə də yaşamaq olmaz...

Mənim ilham pərim qoca qarıdır,
Mənə lay-lay deyir xırıltılı səs,
Min il yaşasam da ömür yarıdır,
Yarıda kəsilir ən dolu nəfəs.

Mən qoca pərimdən gen düşsəm əgər,
Bu öz taleyimdən küsmək olardı,
Qəmimdən bezikib bağırsam: Yetər!
Bu Tanrı sözünü kəsmək olardı...

Bu səkidən
o səkiyə
ən yaxın yol
bax, o ulduzdan keçir.
Ay işığı düşüb yerə,
yatır asfalt beşikdə.
Qonşu yenə
təkbaşına,
yoldaşsız araq içir,
sərxoş söyüş eşidilir
ay altında, eşikdə.
Həsrət tək qalmasın deyə,
ona qulaq yoldaşı
Allah yenə məni seçir.
Yenə uzadır yolları,
yenə bir səkidən
yenə o birinə
yol ulduzlardan keçir...

*1998*

Min illərin yorğunluğu
çıxmalıdır bu dünyanın canından.
Yatmalıdır yer üzü bir az.
Yatmalıdır
sülhün,
sakitliyin qucağında.
Yatmalıdır
Allahın dediyi lay-lay altında...

Payız soyundurur ağacları...
Soyundurur yarpaq-yarpaq.
Ağaclar qalır çılpaq.
Nə gözəldir,
nə təmizdir,
bu "əxlaqsızlıq"...

Bayraqlar
çox ayrılıb yerdən.
Bayraqlar sıyrılıb yerdən,
çox ucaya sancılıb.
Başımızın üstünü alıb,
bizə yalnız kölgəsi qalıb
bayraqların.
Bayraqlar insana əyilsin gərək.
Bayraqlar baş əysin gərək,
uşaq çiyninə dəysin gərək...

*2003*

Dolğun bir yorğunluq,
ağır ustallıq.
Hər yan yovsan,
ətraf balıq-balıq.
Bura bir dəniz,
bura duzlu suyla dolmuş
nəhəng bir iz.
İstilikdən də, soyuqdan da
əsər-əlamət yox.
Keçmiş daha az, gələcək isə çox...

Bu boyda dünyada,
bu sonsuz genişlikdə
büzüşüb yatır insan...
Bu gün ağlımıza batmayan,
sabah bizi batıracaq
fırtınada...

Yolun hayanadır
qonşu kölgəsi?
Bu səkidən
o səkiyə keçib,
bu divardan
o divara düşəcəksən.
Mənimsə kölgəmin yerini
yalnız günəş dəyişəcək.
Özüm tərpənməyəcəyəm,
adı iki-üç alimə bəlli
bir ağac kimi...

Bu ev, bu qapı,
qapıdan darvazaya gedən cığır,
bir qəfəsdir,
nə yüngül, nə ağır...
Ana qədər doğma həbsxana,
bu həbsxananın döşlərini əmən
südəmər məhbusluğumdur...
Başımın üstü Abşeron göyü,
ayaqlarımın altı narın qumdur.
Bu – doğumdur.
Bu – mənim yolumdur.
Şeirlə nigahım, toyumdur.
Burda neçə şeir balam
dünyaya gələcək,
atalarısa
burda südəmər çağında öləcək...

*1987*

Bir gün şirin,
bir gün acıyam.
Bir gün kiminsə ayaqaltı,
bir gün kiminsə tacıyam.
Bir gün çağa,
bir gün ixtiyar qocayam.
Bir gün zirzəmi,
Bir gün damda bacayam.
Amma hər gün hamıya
salam-duaçıyam...

Yadındamı?
Sən var idin.
Mən var idim?
Yadındamı?
Mən var idim.
Sən var idin?
Yadındamı,
biz var idik?
Biz var idik,
yadındamı?

Bu yağış tutdu bizi
ana qarğışı kimi.
İslandıq
təpədən dırnağa,
bu evdən o evə,
bu şəhərdən
o biri şəhərə kimi.
İslandıq
bu gündən sabaha,
keçmişdən gələcəyə kimi.
Yaman tutdu bizi
bu yağış...

Beləliyimə istəyirsənsə
daha dözmə,
amma əlini də
hələ məndən tamam üzmə.
Uçsan, qonşunun
göyərçinləriylə uç,
geri dönə bilirlər onlar.
Getsən,
o qara pişiklə get.
O qara pişik hara getsə,
qayıdır həyətimizə.
Qoy xor baxsınlar bizə,
lap elə gələk sözə,
amma yaşayaq dözə-dözə.
Baxtımız qara yazılı,
Eşqimiz bir sapdan asılı...

Məktubunu aldım.
Çox sağ ol.
İstiydi yaman,
sərinləndim xeyli.
Amma hayıf,
göy üzü tutulsa da,
məktubundan sonra
yağmadı yağış yenə...

Dəniz dərindən dərin,
Yağış sərindən sərin,
Bir mənəm, bir qağayı,
Yaman göründü yerin...

Yağışın nəfəsinə,
Dərin dəniz səsinə,
Quş səsinin pəsinə,
Çənə büründü yerin...

Dərin dənizə qaçdı,
Qağayıyla bir uçdu,
Yağışa işıq saçdı,
Mənə ərindi yerin...

Yaman göründü yerin,
Çənə büründü yerin,
Ayağımdan yer getdi,
Birdən süründü yerin...

*1999*

Yaman yordum, qadan alım,
Yaman yordum özümü.

Yaman yordum, qadan alım,
Yaman yordum dözümü.

Yaman yordum, qadan alım,
Yaman yordum gözümü.

Yaman yordum, qadan alım,
Yaman yordum sözümü...

Bomboş səhəng.
Ağzına qədər
boşluqla dolmuş səhəng...
Səhər hələ açılmayıb,
o başdandır.
Susuzam, susuz...

Hərdən mənə elə gəlir ki,
mən yox,
şeirlər məni yazır.
Oxunuram, oxunmuram,
kimi bəyənir məni,
başqasının zəhləsi gedir
hər sözümdən, fikrimdən.
Bilmirəm,
bilmək də istəmirəm
kim cırıb atacaq,
kim əzbərləyəcək məni...

Yuxulu istilər düşüb şəhərə.
Əsrlərin mürgüsünə bürünüb
Qız Qalası.
Beynimdə neçə fikir
kəfənə bürünüb,
ürəyimdə neçə arzu
beşikdə yırğalanır.
Yuxu görən bir qəbiristanlıq
görürəm:
Başdaşları ilə baş-başa verib,
məzarlar yatır – bir sürü ölüm.
Aləm yuxuya batır.
Yuxulu dualar qalxır göy üzünə...
Çin olur yuxum.
Oyanır qorxum.
Yuxulu dualar
göy üzündə yozulmayacaqlar yenə
nə xeyrə, nə də şərə.
Yuxulu istilər düşüb şəhərə...

*1997*

Ömrüm nisyə getdi,
ölümüm də nisyə olsun.
Elə bir bazarın varmı, İlahi?

Məni yuxuda öldür,
ağrısız, əzabsız.
Elə bir azarın varmı, İlahi?

Mənə bu dünyaya baxmaqçün
bir kiçik pəncərə ver.
Elə bir məzarın varmı, İlahi ?..

Başım üstə nə bayraqdır?
Torpaq oyaq, Göy oyaqdır.
Ancaq aləm, bu kainat
Başdan-başa bir sayaqdır...
Axıb gedir yenə çaylar,
Gödək illər, uzun aylar.
Bir an kəsilməz haraylar
Taleyin dar yollarında,
Bəxtin sınıq qollarında...
Başın üstə nə bayraqdır?
Bəyaz rəngli, son dayaqdır...

Su üstüylə gəzə-gəzə,
Səhralarda üzə-üzə,
Təhqirlərə dözə-dözə,
Hər gün sevinc görməlisən,
Yadda qalan işıqlardan
Hökmən yuva hörməlisən,
İtə-qurda dönməməkçün,
Allah səni söndürməmiş
Öz əlinlə sönməməkçün...

Yuxuda kimi görmüsən
bu gecə?
Gözlərində bir yalqız məzarın
kimsəsizliyi var.
Yum gözlərini,
gözlərinə baş çəkim,
bir dəstə gül qoyum gözlərinə...

Bu gün işıq içəndə
donuna Günəşdən
bir ləkə düşüb...
Dünyanın bütün çayları,
göylərin bütün yağışları
yuyub silə bilməz
bu Günəş ləkəsini...
Odur yorma özünü.
Gözlə. Ona bircə əlac var.
Eşitmişəm, günəşdən qalanları
gecə ilə yuyarlar...

Kimsəsiz adada görünən bayraq.
Yırğalanar
boşluq üzərində.
Və susmaz,
səslənər həmişə
mavi dənizin dalğalı himni...

*1997*

Ölülər bizə yas saxlayıb,
ağlayan gün,
dəlilər qıraqdan baxıb,
bizə gülən gün
göy üzərində Günəş sönəcək,
çökmüş zülmətdə
yaddaşımız geri dönəcək.
Bax, onda ötənlərə
içimizdə baxa-baxa,
artıq mənasız olmuş
bir qorxuyla qorxa-qorxa,
vicdanımız dillənəcək, dinəcək,
xeyirə səsləyəcək bizi,
açacaq ən gizli sirrimizi...
Fəqət gec olacaq,
Allah torpaqlara sürəcək dənizi...

*1997*

Donmuş könül buz bağlayıb,
Bir isti arzu istəyir,
Əriyib səhraya axsın,
Məcnun bəlkə su istəyir...

Simurq quşu göy üzündə,
Qa istəyir, qu istəyir.
Məcnun səhranı dolaşır
Allahdan yuxu istəyir...

*1997*

Canım Xəzər,
sənin bir küncündə
yaşamaq istəyirəm,
lal-kar balıq kimi.
Yosunların arasında gizlənib,
düşünmək istəyirəm
fikirlərdən qurumaqdan qorxmadan.
Qalan ömrümü
dəniz balası olduğumla öyünmək,
bir də böyük balıqlardan
qorxmaq istəyirəm...

*1997*

Gecədir. Bir sərxoş bağırır eşikdə:
– Bağışlayın məni!
Bir dəliqanlı yola çıxır,
yoldaş olun mənə.
Bir yaxınım xəstədir,
ölərsə, rəhmət diləyin mənə.
Yalançıyam!
Nə qədər ki, yalan var yer üzündə...
Əhsən deyin mənə
həqiqət zəfər çalacağı gün!..
Yağış yağdı.
İlk damlalar mən idim,
sonrakı yağmur həyat...

*1997*

O yay öz yolunu
azmış bir soyuq,
gəlib məni tapdı
yay istisində.
Neçə gün qovruldum
arxası üstə,
Günəş ocağında,
Ay tüstüsündə...
O yay qızdırmanın
boz səhrasında
özüm də yol azıb
səssiz gedirdim.
Bir ağız göylərə,
bir pay torpağa
öskürə-öskürə
dua edirdim...

*1997*

Səslər gəlir,
o yandan, bu yandan.
Mələmə qara qoyundan,
şırıltı bulaq suyundan.
Dünya bir anlıq sussa,
çöksə bəşəri sükut,
səs verər
laxtalanmış insan qanı da,
bu quru bağın
çoxdan ölmüş bağbanı da...
Səslər gəlir
o yandan, bu yandan.
Qəribə səs gəlir
qonşuluqdakı dəyirmandan.
Elə bil buğda qarışıq
üyüdürlər sıçovulları da.
Bu səsi mən də eşidirəm,
gecə yoldan ötən qarı da...

*1997*

Bu bir dinclik həsrətiydi,
asudəlik niyyətiydi.
İçimdə pişik yatırdı,
hürən qonşunun itiydi.
Oyandı o səsdən hamı:
qonşu evin yastı damı,
dam üstündə Ay işığı –
qəlbin sükut barışığı,
bircə günün yaraşığı...
Sükut getdi, səs oyandı,
qapı ağzında dayandı...

*1997*

Bu bir sərin xatirədir,
Dağdan gələn meh deyil,
Keçmiş bütöv ödənilib,
Dağdan gələn beh deyil...

Ayaq üstə qalıb dağlar,
Dərələr üzüqoylu,
Törəməmiş illərimdən
Cəmi beş-on gün boylu...

Yağış çilər göy üzündən,
İslanar yaşıl eyvan,
Arxadakı otağımda
Boş döşəmə, boş tavan...

Günəş yaman aram batır,
Sürünüb gəlir axşam,
Bu beş pillə yaman çoxmuş,
Deyəsən qocalmışam...

*1997*

Yorulma, qurban olum,
yorulma, yalvarıram.
Dünya var,
bu dünyada mən də varam,
uçmuş olsa da hasaram,
səninlə qaranlıq arasında.
Mənim də adım var,
günlərin ağında, qarasında.
Yorulma, qurban olum,
Yorulanda söykən mənə,
bu uçulmuş hasarın
dağ boyda sinəsinə...

*1997*

Şükür, dedim,
döyüldü
mənim də qapım.
Açdım.
Yenə Ayrılıq...

Bu yağış
yağış deyilmiş,
göydən
yerə qayıdan
dualarmış...

*1997*

Qürbət nədir?
Yer üzü bir açıq sinədir.
Bəzən od tutub yanan,
hərdən rahat olub soyuyan.
Neçə ölkə gəzmişəm,
bir yad ağac dəyməyib gözlərimə,
hər çay səsiylə
öz dilimdə qoşulub sözlərimə.
Hər yanda atam Günəşdən
isti dəyib dərimə,
Almaniyada anam Ay
hər gecə salıb məni yerimə.
Moskvada başım üstə
bacı-qardaşlarım
doğma ulduzlar sayrışıblar.
Can-ciyərim buludlar
görüşüb, ayrışıblar...
Hey xatırlayıb, salıram yada,
görürəm,
qərib olmamışam
mən bu dünyada...

*1997*

Qızmar daş üstə gürzə.
O bekar,
mən bekar.
Gəl, bir iş görək,
ilan qardaş.
Sən məni çal,
mən də ölüm,
yayı hədər yaşamayaq...

*1997*

Üzümdə ayaq izi var, yarım,
mənə baxma,
başdan-başa tapdanıb diyarım...
Baxma üzümə, yarım,
üzümdə ayaq izi var...

*1993*

Günahlarımı qana-qana,
günahlarımı dana-dana,
bu çıxılmaz ikilikdən
bəzən od tutub yana-yana,
bəzən üşüyüb dona-dona,
üz tutub yalvarıram,
Sənə, İlahi!
Boş vaxtın olsa,
yolun düşsə bu yana,
heç olmasa ayaqüstü
bir baş çək Azərbaycana...

*1997*

Kaş bir dünya olardı,
bu dünyada
kaş bir şəhər olaydı,
şəhərdə kaş bir küçə,
kaş bir gecə olaydı.
Kaş bu gecə üstündə
bir göy üzü olaydı,
oradan kaş bir yağış
yağardı damla-damla...
Əynimdə babat plaş,
başımda rahat papaq
gedəydim bir küçəylə,
gəzəydim bir şəhərdə,
bir dünyadan keçəydim...

*1997*

Sakit ötür bu gecə də,
qorxu yox, qorxudan yox.
Yatır ən kinli adam da
içindəki qəzəblə,
pişiklər də miyoldaşmır,
hürmür bircə köpək də,
yatır sarı dəsmal altda
yeyilməmiş çörək də...

Dənizdə tufanlıq,
şükür, evdəyəm.
Səhrada qum
tuğyan edir bu gün,
şükür, evdəyəm.
Çovğun sinə gərib
uca dağlara,
şükür, evdəyəm.
Yollarda duman,
çöldə qasırğa,
Evdəyəm, şükür.
Kimsə görmədi gözlərimi
bu gecə,
şükür, evdəyəm...

*1997*

Gümrah yaşayan
yorğun ölər...
Mən halsızam,
mən yorğunam,
oyaqsızam elə bil.
Ölən kimi
güc gələcək,
qaçacağam dünyadan...

Neçə-neçə
min illərdir
göydə saralır Ay.
Ancaq düşmür yerə
xəzəl yarpağı tək...

*1997*

Neçin baxmadın o ağaca?
Niyə dönüb
mənə baxdın?
Sən mənə baxan an
bir quş qalxdı o ağacdan,
uçub getdi harasa.
Bir quş yolu görə bilərdin bu gün,
dipdiri bir quş yolu,
mənə baxıb, üz -gözümdə
dünən vurulmuş quşları görməsəydin...

*1997*

Sən mənə on yerdən baxa bilərsən,
mənsə on birinci yerdə çay içəcəyəm,
quyruğunu açmış bir tovuz quşunun
impressionizminə heyrətlə baxa-baxa.
Və beynimin içində unudulmuş
hansısa bir kimsəsiz məzarın
üstünü təmizləyib, yerə düşmüş
baş daşını qaldıracağam.
Və dəyişəcəyəm öz yerimi,
sən duran yerlərdən görünməyim deyə...

*2002*

Aram gələn şeirlərin karvanı,
Ölüb gedən şeirlərin qurbanı,
Bu karvanın qurban kəsilən səsi,
Sənə qurban olum, duman yiyəsi...

İki gözüm göy üzünə baxıbdır,
Göy üzünə iki Günəş çıxıbdır,
Biri karvan, biri qurban üstündə,
Biri yarımçıqda, biri bütündə...

Yorulmayan bir küləyin səsini,
Yer üzünün qarğışını, nəsini,
Batır zilə qalxan səsin pəsini,
Sənə qurban olum, duman yiyəsi...

*2002*

Bu bazar azardı, bu bazardan hamı bezardı.
Günahkar ilk kral, birinci padşahdı,
bəlkə Kirdi, bəlkə Yuli Sezardı,
bəlkə yeyib – içib, yatandı?
Ya da torpağa ilk dən atandı?..
Mal var qaradı, mal var vicdana yaradı.
Bir soruşan yoxdur: Bu dünya haradı?
Nəyin arxasında, kimin qabağında,
Nəyin solunda, kimin sağında?
Neçə min il yaşamaq olar ölüm ayağında?..

*2003*

Polyak qızı, mən sənə
Nəfəs deyim, ah deyim?
Çıxar xaçı sinəndən,
Mən bir bismillah deyim...

Əllərim bekar qalıb,
Saçlarını bəri ver,
Dodaqlarım sıyrılıb,
Sinən üstən dəri ver...

Burnumdan əsirgəmə,
Duyacağım son ətri,
Bir eşq boyu yubansın,
Son şeirimin son sətri...

*2004*

Bütün pəncərələr yumulmuş gözdür,
bu evlər, küçələr deyilmiş sözdür...
Yaralı buluddan yağan yağışlar,
günah yumasa da bir az bağışlar.
Bəlkə bizdən bir az yan keçər bu gün
həyalı söyüşlər, doğma qarğışlar?
Və quşlar,
və quşlar qəfəsə vurğun,
İlahi, çox sağ ol,
yenə də heysizəm, yenə də yorğun...

*2004*

Soyuqdan donanda
yuxuda Günəş
görünsə, alışsa,
pis olmaz yenə.
“Donuram”, – deyənə,
baxtın söyənə,
heç olmasa, bir az
yuxu olsa da,
başının üstündə Günəş gərəkdir,
kömək olmasa da
bir az dirəkdir.
Bu soyuq dünyaya
isti yuxudan
çıxanın ümüdü buz da bağlamaz.
Qışı yada salıb,
yaz da ağlamaz...

*2005*

Hamınıza can sağlığı,
olanından-qalanından...
Və bir çimdik də olsa, bakirəlik,
olanından-qalanından...
Və ağıl,
olanından-qalanından...

Gözlərində
boş yer varmı?
Varsa,
izn ver, görünüm,
gözlərinin
qarasına bürünüm...

İçimin cığırlığına qaya düşərsə,
yenə səni görəcəyəm.
Görəcəyəm ağ şanı giləsinin içində.
Vallah,
içimə kəpənək ciyəri tiksələr də,
nəfəs alıb səma udacağam.
Ağ şanı giləsində
səni görmək üçün...

*1964*

Günəş qızdırmalı,
Ay sarılıq tutub,
Kainat xəstə yatıb...
Bilmirsən neyləyəsən?
Əlindən nə gələr?
Kimsən sən?

O, bizdən uzaq gedərsə,
O, bizdən yazıq gedərsə,
Yolunu azıb gedərsə,
Mənə nə?
Sənə nə?
Bizə nə?

Torpağa qan hoparsa,
Torpaq yerdən qoparsa,
Yeri yellər aparsa,
Mənə nə?
Sənə nə?
Bizə nə?

O, bura gəlib güləcəksə,
Ordan bizi güdəcəksə,
Gəlib-gedib itəcəksə,
Mənə nə?
Sənə nə?
Bizə nə?..

*1964*

*Nüşabəyə*

Elə bilirsən
sənə deməyə
daha sözüm qalmayıb?
Üzündə təbəssümünü görməyə
gözüm qalmayıb?
Bu sən, bu mən,
bu torpaq.
Elə bilirsən
qarşında çökməyə
dizim qalmayıb?

*2006*

Mənim o gecəki yuxumu
bu gecə kim görür görən?
O bulud
sənə bənzəyirdi,
küləklə dağılıb mənə döndü.
Narın,
isti qumun üstüylə gedirik.
Mən və köpəyim Topaş.
İkimiz də ayağıyalın...

*2006*

– Aç qapını, Nüşabə.
– Döyülmədi axı.
– Aç, sən eşitməzsən,
ölüm şeirləri gəlıb...
Mən yazacağam onları,
yoxsa özləri yazılacaq?
Dayan, Nüşabə,
özüm açım qapını...

*2006*

Sahil boyu,
üfüq boyu,
ömrüm boyu,
hələ görməmişdim belə şey.
Gözləri
sahil uzunu,
ügüq uzunu,
ömrüm uzunu...

*2006*

Barmaqlar arasından
axıb, gedir ömür.
Nə barmaqlar səninmiş,
nə ömür sənin...

Ovcumda narın qum,
barmaqlarımın arasından
süzülür yerə.
Əlvida,
birrəngli
ağ və qara günlərim...

*1999*

Bənövşə də məni görüb,
Qarşımda boyun əymədi.
Sevincin böyründən ötdüm,
Çiynim də ona dəymədi.

Görən sabah nə olacaq?
Nə olursa, olan olsun,
Gündüz Günəş, gecəsə Ay,
Lap dəniz də yalan olsun.

Heyranlıq kar olub daha,
Marağın tutulub gözü,
Çat vermərəm göy üzündən,
Yoxam desə Allah özü...

*1999*

Nə yaxşı ki, oyaq idim,
Sən yuxuma girəndə,
Nə yaxşı ki, ayıq idim,
Səni o gün görəndə.

Bir divara söykənmişdim,
Sən qarşıma çıxanda,
Nə yaxşı ki, kor deyildim,
O gün sənə baxanda.

Bilmədim, səni buraya
Meh ya duman gətirdi,
Onu bildim ki, o yerdə
Baxtım yaman gətirdi.

Kim deyir ki, yerdən göyə
Dualar boşa gedir?
Göylə bulud, yerlə o qız,
Dualar qoşa gedir.

Sevinməyə anlar varmış,
Allah, şəhər içində,
Fəqət canım duz bağlayıb,
Qanım şəkər içində..

*1999*

Bir qadın qaməti var,
çınara bənzər.
Bir qadın yerişi var,
meh kimi gəzər.
Bir qadın baxışı var,
dibi görünən dəniz.
Bir qadın nəfəsi var,
Allah nəfəsiylə əkiz...

*1999*

Bir yol.
Bir uzun yol,
bir daşlı-kəsəkli yol,
bir atdan nal tökən,
quşdan qanad salan yol.
Bir yol ki,
sağı üfüq, solu üfüq,
altı torpaq, üstü göy...

*2000*

Dönməyə yer yox.
Belə düz yol
olmamalıdır yer üzündə.
Dönmək arzusundan
dönməməlidir insan.
Hərdən hətta burulmalısan
doğru yoldan,
bu yolda lap gülləylə vurulmalısan.
Amma mütləq dönməlisən!
Ya sağa – eşqə aparan bir dalan,
Ya sola – bir şirin yalan...

*1999*

Hamıdan yorğun
kimdir bu dünyada?
Sənmi?
Mənmi?
Başqa bir kəsi
sala bilmirəm yada...
Bəlkə o yalçın qaya?
Yox,
bu dünyanın ən yorğunu
elə bu dünyadır, bu dünya...

*2000*

Qar yağır zirvələrinizə,
ətəkləriniz,
yamaclarınız ağarır,
dağlar!
Mənsə
sizə güvənirdim...

*1999*

Dünyamızın bir sifəti,
Bir sifətdə min yönü,
Üfüqlərin sonsuzluğu,
Sonsuzluğun düyünü..
Hər an çıxmaq arzusuyla
Əbədisən an içində,
Əbədisən dövr eləyən,
Laxtalanan qan içində...

Günün daima bu gündür,
Sabahın yox, dünənin yox,
Nə bir irəli gedənin,
Nə də geri dönənin yox...

Qapı hardan bağlanırsa,
Üz olur arxası, önü,
Üfüqlərin sonsuzluğu,
Sonsuzluğun düyünü...

*2000*

Söz əzəlmiş.
O səkidən bu səkiyə
keçən qızda
bir cüt ala göz gözəlmiş...
Beyin gen düşür ürəkdən,
andlar ayrılır çörəkdən.
Zor iş imiş
ömür sürmək bilərəkdən.
Bizi vuran hansı əlmiş?
Bu yer, bu yurd,
bu dil, bu din bir əcəlmiş...

*2000*

İlahi, buraxma,
buraxma
illər uzunu
köksümün qəfəsində
saxladığın
bu intihar quşunu!
Quş da deyil, İlahi,
quşcuğazdır, oxuyur.
Qoy oxusun özü üçün...

*1999*

Bu tüstü göz oxşar,
bu tüstüdən göz yaşar,
yaş gözlə yeriş çaşar.
Bu tüstü
sənə dolub, səndən çıxar,
səndən yerə axar,
sürünər yer üzüylə,
gedib o təpələri aşar...
Tüstü olub, qoşularıq küləyə,
küləklə əlbir olub,
ğözlərə dolarıq,
yaşayarıq tüstü ömrü,
şərik çıxarıq külək taleyinə.
Özümüzə qayıdarıq...

*1999*

Danlama onu, danlama,
o bir yalqız köpəkdir,
qəribsəmiş bir ürəkdir,
ulayır özü üçün.
Bəlkə nədənsə darıxıb,
bəlkə nədənsə karıxıb,
səsiylə səndən çox
üzür özünü,
ulamaqla, deyir bədbaxt sözünü...
Gecədir, gecə,
özü də necə!
Ay arıq, ulduzlar nazənin,
ürəyi üzülür ürək üzənin.
Danlama onu, danlama...

Barama qurdunun sonu
ya kəpənək,
ya ipək...
İlahi, çox sağ ol!
Onların
üçü də göyçək...

*2000*

Səbr eylə, döz bir az,
bu tutqun hava
səni bu gün boğacaq, boğacaq,
amma sabah
səni boğan bu boğuq səma
apaçıq bir yağış doğacaq, doğacaq...
Bu boz yerdən
gömgöy otlar çıxacaq, çıxacaq,
hər kol dibindən üzünə
bir gülərüz çiçək baxacaq, baxacaq...

İlahi,
saat əqrəbləriylə
12-yə qalxıb, 6-ya enirəm.
İlahi,
3-ə sarı sağa,
9-a doğru sola dönürəm.
İlahi,
bu da Sənin əməlin,
burda da Sənin əlin!
Səni tapacaqlar, İlahi,
yuvan istər dayaz olsun, ya dərin...
Hər yanda, hər şeydə
Sənin barmaq izlərin...

Bir körpə nəfəsindən,
nəğmə deyən səslərin ən pəsindən,
aciz bir mehdən,
buxarlanmış şehdən,
ən xəfif, ən aciz
daha nədən, nədən
dağılmağa razıyam...
Amma dolğun,
amma yorğun,
amma arğın, böyük bulud kimi,
çəkisiz,
amma bir yük bulud kimi...

Bağışla, İlahi,
yatmaqdan qabaq,
yuxuya getməkdən öncə
dua eləmirəm Sənə.
Mən yuxuda
dua eləyib,
oyanıram, İlahi...

Səssiz-səmirsiz olmaq,
Bayquş uçuşu kimi,
Yer üzündə ən sakit
Dəlinin huşu kimi...

Gündüz gün işığından,
Gecə ulduzlardan qaç,
Qəlbinin qapısını
Yalnız yalqızlığa aç...

Səni düşündürməsin
Sabah nə olacağı,
Kimlərin öləcəyi,
Kimlərin qalacağı...

Sev, sevil, ancaq çalış,
Lap yavaş çıxsın səsin,
Bir də vətən sevgisini
Azərbaycan bilməsin...

Yarım, dizlərinə döy,
Mən çıxdım qabağına,
Lənət şair cinsinin
Qarasına, ağına.

Bu gün səni əzizlər,
Tutub basar bağrına,
Sabah özünə ağlar,
Yanmaz sənin ağrına.

Üç fəsil evdən çıxmaz,
Qışı qatar bahara,
Birdən göylərə qalxıb,
Qoşular durnalara.

Uçar ana torpağa,
Göydən ağlamaq üçün,
Yüngülləşib, özünü
Göydə saxlamaq üçün.

Ancaq bezər göydən də,
Sıxılar genişlikdən,
Şeirin sözləri çıxar
Hər küncdən, hər deşikdən.

Enər şeir yazmağa,
Göz qabağında yanar.
Yarım, sənin gözündə
Yenə də aləm donar...

*1997*

İmdadım da səssiz,
səssiz-səmirsiz.
Səhrada azmış
lal-kar kimiyəm...
Aman Allah,
nə böyük nemət imiş səs!
Səhradan gələn
insan səsi...

*(1987) 1997*

Dünya qoymur yavaş-yavaş yaşayım,
Həzin-həzin payız bağına dönüm,
Şığıyan qatardan görünən ev tək,
Uzaqda görünüm, uzaqda sönüm...

Dünya qoymur divarlardan ayrılıb,
Ağac kölgəsiylə oturub-durum,
Bir süfrə başında otla, çiçəklə,
Bir az Günəş yeyim, bir az Ay vurum.

Dünya qoymur buludların köçünə
Qoşulub, ən ucqar yaylağa gedim,
Ömür səhrasının lap o başından
Ölüm yellədiyi yaylığa gedim...

*1997*

Daşlar isti, divar isti,
Deyəsən yenə yay gəlib.
Ya iyundur ya avqustdur,
Hər halda isti ay gəlib.

Böyüyüb küçə səsləri,
Daha açıqdır pəncərə,
Yenə bağ həsrəti gəlir,
Bəlkə də nahaq yerə...

Quşlar da zildən oxuyur,
Tər şehlı yay səhərləri,
Amma hayıf, artır yayda
Ölüm-itim xəbərləri...

*1998*

Mənə muştuluq verin!
Bu səhər
Günəş doğdu doğudan,
səs-səsə verib,
eyvanda cibbildəşdi sərçələr.
Uşaqlığım düşdü yadıma,
bir də ağ şanı gilələri.
Dəniz qırağında
üzüm yeyən
arıq, yekəbaş
bir oğlan uşağı...

Sabah vaxtın olsa,
yada sal məni,
heç olmasa
bir səkidən
o birisinə keçərkən.
Qoy üstünə gələn
bir avtonun səsi
unutdursun məni yenə.
Mən də yaddaşından çıxıb,
lənət deyim
siqnal səsinə...

*1998*

Xəzri də bu gecə
dırnağı üstə
səssiz keçir burdan.
Aptekin vitrini də
zəiflədib işığını.
Külək də, işıq da
mane olmurlar
mənə bu gecə.
Qulaqlarımın içində
quş səsləri var çünki.
Sevinirəm.
Sevinmək çoxdan bəri
düşmürdü yadıma...

*1998*

Yer üzünün məscidlərində,
kilsələrində
neçə milyard şam yanır
hər gün?
Amma yenə
hər yan qaranlıq...

*1998*

Üzümə dəydi
səsinin mehi.
İlahi,
içində nə təmiz
hava varıymış...

Bir qara qaya
günbatanın
rənglərinə söykənib.
Bu qayanın başında durub,
uzaqlara baxıram,
uzaqların açıq səhnəsinə.
Böyüyən uşaqları,
ora-bura gedən maşınları
görürəm.
Bir də başqa qayaları...

Hər uca bir dağın dərin
Dərəsi var, deyiblər.
Ölümdən başqa hər dərdin,
Çarəsi var, deyiblər...

Bəlkə də hər uca dağın
Zirvəsi dərəsidir,
Bəlkə də ölümün özü
Hər dərdin çarəsidir...

*1998*

Ürəyim yalındır,
ömür yolu daş-kəsəkli,
o oyuq qayalar,
mağaralar
daşa dönmüş ağızlardır,
haraydan sonra
açılı qalmış...

*1998*

Nə daşıyım?
Çiyin məndən.
Yük verin.
Sizə də, mənə də
xeyir verəcək,
bir ağırlıqla yükləyin məni.
Yüngülləşək hamımız...

*1997*

Bu qulaqlar
mənimdirmi?
Bəs bu çənə,
çeçələ barmaq,
burun necə?
Bu bığ yiyəsi
Vaqif Səmədoğlumu?
Ola bilər.
Amma
bu gözlərə
yaman şübhəm var...

*2008*

Zavallı bulud...
Düzəldi də,
pozuldu da.
Yarımçıq qaldı
özü də,
özü kimi sözü də.
Bu da göy üzü...

*2008*

Gecə qarladı.
İndi Bakı
yer üzünün
ən nəm, ən uzaq
yad yeridir mənimçün...

Bir gün axşam üstü dəniz səsinə
batan bir qayığın fəryadı dolar.
Bir gün axşam üstü mənim evimdə
bir lampa da sönər işıq içində.
Bir gün axşam üstü yağış suyundan
qalan gölməçədən dəniz səsi çıxar.
Və bir qayıq batar yağış gölməçəsində.
Fəryadla....

*1986*

Şam sönəndə
qaranlıq çöksə yaxşıdır.
Mənim yüzlərlə şam içində
sönən tənha şama
yazığım gəlir.
Hər insan o tənha şamdır...

*1986*

Sarmaşıqlı gecələrdə Ay işığı,
çiçəklərin, otların arasından süzülər.
Vaxt dəyişər
sarmaşıqlı gecələrdə Ay çıxanda.
Beşikdə, nənnidə öz gözünlə görərsən
mışıl-mışıl yatan nənələri, babaları.
Çiçəklər, otlar arasından süzülən
Ay işığında lay-lay deyə bilərsən
körpə olmuş anana.
Nə keçmişdə, nə indidə, nə gələcəkdə
sayrışar ulduzlar sarmaşıqlı gecələrdə.
Olan və olacaq
qucaqlaşan yerə düşər Ay işığı.
Ölən və öləcək birləşən yerə...

*1986*

## Kopenhagendə

1971-ci ildə
bir şair şeirlərini satırdı,
doldurub kitablarını
uşaq arabasına.
Başında zınqrovlu papaq,
əynində təlxək paltarı.
Gözlərində
ürəyinin rahatlığı...

Hansısa bayramdan sonra
başlanıb ömrüm.
Yuyulmamış
qab-qacaqla dolu
mətbəxdə açmışam
dünyaya gözümü.
Və mətbəxin
pəncərəsindən baxıb eşiyə,
hər kişidə,
hər qadında,
hər uşaqda
görmüşəm özümü,
yalnız özümü...

Saral yolum, qaral, yolum,
Çox genəldik , daral, yolum,
Sevinc bizi daşa vurdu,
Sevinc qəsdimizə durdu.

Daral, yolum, gedə bilək,
Gedə-gedə itə bilək,
Sağ-salamat adam kimi,
Göz yaşına yetə bilək.

Yoxsa sevinc çatar bizə,
Quru diş tək batar bizə,
Ömrün-günün yalanını
Şeirə büküb, atar bizə.

Gedək, mənim oğul yolum,
Sola-sağa burul, yolum,
Salıb məni dolaylara,
Öz-özünlə boğul, yolum...

Yenə bir uzaqda
şaxta cingildəyir,
o biri uzaqda
isti leş salıb,
əlinə keçəni.
Yenə iki qütb arasında
Qalmışam əlim yaxamda.
Qalmışam
istidən yana-yana,
soyuqdan dona-dona...

### *Nüşabəyə*

Bu dünya, bir də sən olmasaydınız,
Harada, kiminlə mən tək qalardım,
Başqa bir yalqızın sığınmağıyçün
Yəqin ki, həm dünya, həm sən olardım...

Allah, nə var, nə yox?
Məndən nə xəbər var?
Gecələri özüm sayaram,
Üzümə açılacaq neçə səhər var?
Bəyənəcəksənmi məni,
Bəndəni hansı gözlə görəcəksən?
Allah,
Özüm gəlim,
Ya kimisə göndərəcəksən?..

*2014*

İlahi,
yatağın nə sağında,
nə solunda,
nə bir gözəlın qolunda
yatmaq istəyirəm.
İlahi,
nə söyüd kölgəsində,
nə dünyanın
ən azad ölkəsində
yatmaq istəyirəm.
İlahi,
dar quyu dibində,
qaranlıq nəm içində,
işıqlı qəm içində,
ağrısız
yatmaq istəyirəm...

*2014*

# MÜNDƏRİCAT


Bu gün....4
Qoxun....5
Gələcəklər, gedəcəklər, olacaqlar, öləcəklər, ....6
Məni daşla bağa aparma, bala, ....7
Neçə ildir ....9
Kölgələr daraşır,....10
Yağış yaxşı şeydir, ....11
Dilənçilikmi bu, yoxsa ürək üzmə?....12
Buranın havası necədi? ....13
Səksən səkkiz yaşında ....14
Bu bayram kimin ağlına gəldi?....15
Uf, aman Allah, ....16
Səndən yenə....17
O bayrağa nə olub?....18
Bu palitradakı rənglər ....19
Bu günümüz belə keçdi, ....20
Məni sabah erkən ....21
Bir az ....22
Abırlı saydığımız adamların....23
Gecə, necə gecə!....24
Sevilməli, ....25
Qar üstündə....26
Ölünü zəhərləmək olmaz,....27
Rəssamlar var,....28
İstidir yaman. ....29
Getdiyimiz bu yol küçədir? ....30
Biri vardı, biri yoxdu, ....31
Oturdun, ....32
Qurani – Kərim kitabını ....33
Narahatam, narahat.....34
Pərvanələr azalıb....35
Yenə çıxa bilmədim aradan. ....36

Bu yerlər........................................................................................37
Sözə də göz dəyərmiş,..........................................................................38
Saçların ipək yolu, ................................................................................39
Həmən gecə, həmən səki, .....................................................................40
Hardasa uzaq bir planetdə,...................................................................41
Bağlama özünü, .....................................................................................42
Tanıdınmı məni? ....................................................................................43
Dünya bilsə,............................................................................................44
Açarını itirdim, qapım! ..........................................................................45
Tək-tük adamlar indi ............................................................................46
Dəniz əl-üzünü yuyur............................................................................47
Aya baxıram, ..........................................................................................48
Üzünüz qara olsun,................................................................................49
Əynimdə sarımtıl plaş,...........................................................................50
Bilirəm,...................................................................................................51
Kimi sevim, sevim necə? .......................................................................52
Üz-gözünə, bığlarına..............................................................................53
Qurutduğun bataqlığa............................................................................54
Günlər .....................................................................................................55
Kaş çoxlu pul qazanıb, ...........................................................................56
Yalan yağışı yağır. ..................................................................................57
Bir rəssam öldü. .....................................................................................58
İlin bir ayını ...........................................................................................59
Hamıyçün yana bilmərəm......................................................................60
Nəyin yoxdur sənin? ..............................................................................61
O qoca ev .................................................................................................62
Göy üzüylə bulud gəlir,..........................................................................63
Elə yaşayıram .........................................................................................64
Şüşə pəncərənin deyil,...........................................................................65
Bir yuxu böyrü üstə, ..............................................................................66
Havadır, işıqdır, .....................................................................................67
Bu şeirlər yuxuludur, .............................................................................68
Mənə yaxın durma, .................................................................................69
Bir kəpənək uçdu böyrümdən,...............................................................70
Göy üzündə Aypara,................................................................................71
Gecədir. ...................................................................................................72

Xirtdəyə qədər ........ 73
Tanış olun: ........ 74
Qışda evdə qovurğa, ........ 75
Yaralıyam, yaralı, ........ 76
İki göz yerinə ........ 77
Yağış əvvəl ........ 78
O daşı əyilib, öpmək istədim, ........ 79
Yorulub, yorulub atlar, ........ 80
Burda axı bir yol vardı, ........ 81
Baxdım siyahılara... ........ 82
Ağlatma. ........ 83
Hardasan yastı daxma, ........ 84
Üfüqdən gözəl ........ 85
Məndən nahaq qorxdun. ........ 86
Dayanma. ........ 87
Atalar ........ 88
İndi kədər ya cin, ........ 89
Keçi olmasam da ........ 90
Təmiz hava yorğunluq, ........ 91
Əlil dəlildirmi? ........ 92
Evlər, nə evlər, ........ 93
Mən də səndən küsülüyəm ........ 94
Aram-aram, asta-asta ........ 95
O gün dəniz vardı, ........ 96
Öz əlifbamız olsaydı, ........ 97
Gözlərində boş yer varmı? ........ 98
Niyə belə dolğun olursan, ........ 99
Bir yulğun var Bəndivanda, ........ 100
Düyün düşən yuxular var, ........ 101
Mənim ilham pərim qoca qarıdır, ........ 102
Bu səkidən ........ 103
Min illərin yorğunluğu ........ 104
Payız soyundurur ağacları... ........ 105
Bayraqlar ........ 106
Dolğun bir yorğunluq, ........ 107
Bu boyda dünyada, ........ 108

Yolun hayanadır ........ 109
Bu ev, bu qapı, ........ 110
Bir gün şirin, ........ 111
Yadındamı? ........ 112
Bu yağış tutdu bizi ........ 113
Beləliyimə istəyirsənsə ........ 114
Məktubunu aldım. ........ 115
Dəniz dərindən dərin, ........ 116
Yaman yordum, qadan alım, ........ 117
Bomboş səhəng. ........ 118
Hərdən mənə elə gəlir ki, ........ 119
Yuxulu istilər düşüb şəhərə ........ 120
Ömrüm nisyə getdi, ........ 121
Başım üstə nə bayraqdır? ........ 122
Su üstüylə gəzə-gəzə, ........ 123
Yuxuda kimi görmüsən ........ 124
Bu gün işıq içəndə ........ 125
Kimsəsiz adada görünən bayraq. ........ 126
Ölülər bizə yas saxlayıb, ........ 127
Donmuş könül buz bağlayıb, ........ 128
Canım Xəzər, ........ 129
Gecədir. Bir sərxoş bağırır eşikdə: ........ 130
O yay öz yolunu ........ 131
Səslər gəlir, ........ 132
Bu bir dinclik həsrətiydi, ........ 133
Bu bir sərin xatirədir, ........ 134
Yorulma, qurban olum, ........ 135
Şükür, dedim, ........ 136
Qürbət nədir? ........ 137
Qızmar daş üstə gürzə. ........ 138
Üzümdə ayaq izi var, yarım, ........ 139
Kaş bir dünya olardı, ........ 141
Sakit ötür bu gecə də, ........ 142
Dənizdə tufanlıq, ........ 143
Gümrah yaşayan ........ 144
Neçə-neçə ........ 145

Neçin baxmadın o ağaca? .......... 146
Sən mənə on yerdən baxa bilərsən, .......... 147
Aram gələn şeirlərin karvanı, .......... 148
Bu bazar azardı, bu bazardan hamı bezardı. .......... 149
Polyak qızı, mən sənə .......... 150
Bütün pəncərələr yumulmuş gözdür, .......... 151
Soyuqdan donanda .......... 152
Hamınıza can sağlığı, .......... 153
Gözlərində .......... 154
İçimin cığırlığına qaya düşərsə, .......... 155
Günəş qızdırmalı, .......... 156
O, bizdən uzaq gedərsə, .......... 157
Elə bilirsən .......... 158
Mənim o gecəki yuxumu .......... 159
– Aç qapını, Nüşabə. .......... 160
Sahil boyu, .......... 161
Barmaqlar arasından .......... 162
Bənövşə də məni görüb, .......... 163
Nə yaxşı ki, oyaq idim, .......... 164
Bir qadın qaməti var, .......... 165
Bir yol. .......... 166
Dönməyə yer yox. .......... 167
Hamıdan yorğun .......... 168
Qar yağır zirvələrinizə, .......... 169
Dünyamızın bir sifəti, .......... 170
Söz əzəlmiş. .......... 171
İlahi, buraxma, .......... 172
Bu tüstü göz oxşar, .......... 173
Danlama onu, danlama, .......... 174
Barama qurdunun sonu .......... 175
Səbr eylə, döz bir az, .......... 176
İlahi, .......... 177
Bir körpə nəfəsindən, .......... 178
Bağışla, İlahi, .......... 179
Səssiz-səmirsiz olmaq, .......... 180
Yarım, dizlərinə döy, .......... 181

İmdadım da səssiz, ........ 182
Dünya qoymur yavaş-yavaş yaşayım, ........ 183
Daşlar isti, divar isti, ........ 184
Mənə muştuluq verin! ........ 185
Sabah vaxtın olsa, ........ 186
Xəzri də bu gecə ........ 187
Yer üzünün məscidlərində, ........ 188
Üzümə dəydi ........ 189
Bir qara qaya ........ 190
Hər uca bir dağın dərin ........ 191
Ürəyim yalındır, ........ 192
Nə daşıyım? ........ 193
Bu qulaqlar ........ 194
Zavallı bulud... ........ 195
Gecə qarladı. ........ 196
Bir gün axşam üstü dəniz səsinə ........ 197
Şam sönəndə ........ 198
Sarmaşıqlı gecələrdə Ay işığı, ........ 199
Kopenhagendə ........ 200
Hansısa bayramdan sonra ........ 201
Saral yolum, qaral, yolum, ........ 202
Yenə bir uzaqda ........ 203
Bu dünya, bir də sən olmasaydınız, ........ 204
Allah, nə var, nə yox? ........ 205
İlahi, yatağın nə sağında, ........ 206

**Təşkilati dəstək:**

Ukrayna Azərbaycanlılarının Birləşmiş Diasporu
www.aybkitab.az
www.kitabevim.az
"Vektor" nəşriyyatı
"Mütərcim" nəşriyyatı
Yayım Assosiasiyası
"Bayatı" kitab dükanı
Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzi

Əlaqə telefonu: (+99450) 358 77 55

***     ***     ***

*Kitab «Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzində səhifələnmiş və çap olunmuşdur.*

Çapa imzalanıb: 13.04.2016. Format: 70x100 1/32.
Qarnitur: Times. Həcmi: 13,5 ç.v. Tiraj: 300. Sifariş № 94.
Qiyməti müqavilə ilə.

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA
MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125
596 21 44; 497 06 25; (055) 715 63 99
e-mail: mutarjim@mail.ru

www.mutercim.az